12 dekabr Ümummilli Lider Heydər Əliyevin anım günüdür!

49 (1355) 12-18 dekabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏR ARASINDA DİALOQ PROSESİNƏ BEYNƏLXALQ SƏVİYYƏDƏ TÖHFƏ VERİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) prezidenti Maykl Tuçini və Komitənin yeni seçilmiş prezidenti Bernard Kaminetskini qəbul edib.

Maykl Tuçin və Bernard Kaminetski Azərbaycanda mövcud olan dinlər və mədəniyyətlər arasındakı dialoqun, ölkəmizdə müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələrinin qarşılıqlı hörmət və harmoniya şəraitində yaşamalarının bütün dünya üçün nümunə olduğunu vurğulayaraq, dövlət səviyyəsində aparılan bu siyasətə görə Prezident İlham Əliyevə təşəkkür ediblər.

Qonaqlar ölkəmizə səfər çərçivəsində Quba rayonunda, Qırmızı Qəsəbədə olduqlarını dedilər və qeyd etdilər ki, bu qəsəbənin özünün mövcudluğu, onun inkişafı, orada yaradılmış nadir yəhudi muzeyi də dünya üçün bir nümunədir.

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanda müxtəlif dini və etnik konfessiyaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşamaları xalqımızın həyat tərzidir və əsrlər boyu ölkəmizdə bu cür harmonik ab-hava mövcud olub. Prezident İlham Əliyev vurğuladı ki, bütün bunlar, eyni zamanda, Azərbaycanda həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir və dövlət siyasəti çərçivəsində dəstəklənir.

## “İKİLİ STANDARTLAR, DAXİLİ İŞLƏRƏ MÜDAXİLƏLƏR MÜASİR DÖVRDƏ ÖLKƏLƏRİN QARŞILAŞDIĞI NEQATİV HALLARDIR”



“Təəssüf ki, əsassız təzyiqlər, ikili standartlar, daxili işlərə müdaxilələr müasir dövrdə ölkələrin tez-tez qarşılaşdığı neqativ hallardır. Bu isə öz növbəsində qarşılıqlı dəstək və birgə fəaliyyətin vacibliyini bir daha ön plana çıxarır. Biz parlament diplomatiyasının bütün mövcud imkanlarından faydalanmaqla, konstruktiv dialoq və əməkdaşlığı rəhbər tutmaqla qarşıya qoyduğumuz hədəflərə nail ola bilərik. Bugünkü parlament konfransımız da əslində bizlərin ortaq niyyətinin bariz ifadəsidir”.

Bu sözləri Milli Məclisin sədri Sahibə Qafarova dekabrın 7-də MM-də keçirilən “Parlamentarizm: ənənələr və perspektivlər” mövzusuna həsr edilmiş beynəlxalq parlament konfransında çıxışı zamanı deyib.

Sahibə Qafarova xatırladıb ki, 2020-ci ilin payızında Azərbaycan 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri ilə 30 illik işğala və haqsızlığa son qoydu, ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin etdi. Eyni zamanda, bu, məhz ölkəmizin təşəbbüsü ilə Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin yaradılması imkanlarına da yol açdı. Onun sözlərinə görə, bütün bu proseslər fonunda bir sıra Qərb ölkələri və onların parlamentləri, AŞPA və Avropa Parlamenti kimi qurumlar Azərbaycana qarşı yalan ittihamlar üzərində qurulmuş böhtan və dezinformasiya kampaniyaları aparır, ölkəmizin daxili işlərinə müdaxilə edirlər. Milli Məclisin sədri vurğulayıb ki, bunun yeganə səbəbi isə Azərbaycanın kənar diktələri rədd edərək, öz torpaqlarını işğaldan azad etməsi və milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirməsidir.

Bu tip təxribatların BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilmiş 29-cu sessiyası (COP29) dövründə özünü aşkar şəkildə büruzə verdiyini deyən Milli Məclisin sədri bildirib ki, Azərbaycanın iqlim dəyişmələri kimi qlobal problemlə mübarizədə bütün dünyanın səylərini birləşdirməyə çalışdığı bir dövrdə, öz dar siyasi maraqlarını güdən dairələr bu qlobal tədbiri boykot çağırışı edir, ölkəmizə qarşı absurd iddialar səsləndirirdilər. Lakin onların bu təxribatları nəticəsiz qaldı.

Sahibə Qafarovanın sözlərinə görə, COP29 ən yüksək səviyyədə keçirildi və əhəmiyyətli nəticələrin əldə olunması ilə başa çatdı. COP29 çərçivəsində Parlament Görüşü təşkil etməklə Milli Məclis bu mühüm prosesə öz töhfəsini verdi.

## AZƏRBAYCANLA RUSİYA ARASINDA UĞURLU ƏMƏKDAŞLIQ HƏYATA KEÇİRİLİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul edib.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatorunun başçılıq etdiyi nümayəndə heyətinin Qubadlı rayonuna səfərinin əhəmiyyətinə toxunub, orada Həştərxan vilayəti tərəfindən hədiyyə olaraq uşaq bağçasının inşasının önəmini vurğulayıb, buna görə bir daha minnətdarlığını bildirib. Prezident İlham Əliyev bunu Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin, o cümlədən ölkəmizlə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirib.

Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfəri zamanı İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətinin həmin ərazilərdə törədilən dağıntıları, eyni zamanda, keçmiş məcburi köçkünlərin oraya tezliklə köçürülməsinin təmin edilməsi üçün Azərbaycanın həyata keçirdiyi bərpa-quruculuq işlərini öz gözləri ilə görməsinin əhəmiyyətinə toxunub. Azərbaycan Prezidenti bir daha qeyd edib ki, Həştərxan nümayəndə heyətinin orada gördüyü dağıntılar bütün Qarabağ və Şərqi Zəngəzurda - böyük bir ərazidə də var.

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında yenidənqurma və bərpa işlərinə, o cümlədən sosial infrastrukturun yaradılmasına verilən hər cür dəstək, xüsusilə dost ölkələr tərəfindən göstərilən dəstək çox mühüm əhəmiyyət və böyük rəmzi xarakter daşıyır.

Görüşdə Azərbaycanla Rusiya arasında dostluq əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdiyi, eləcə də ölkəmizin Rusiyanın ayrı-ayrı bölgələri, o cümlədən Həştərxan vilayəti ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulanıb.

İqor Babuşkin Azərbaycanla iqtisadi-ticari əməkdaşlığın genişlənməsi üçün konkret tədbirlərin həyata keçirildiyini bildirib. Söhbət zamanı nəqliyyat, tranzit yükdaşımalar, kənd təsərrüfatı, ticarət, turizm və humanitar sahələrdə əməkdaşlığın perspektivləri barədə məsələlər müzakirə olunub.

## Azərbaycan GECF-nin 26-cı Nazirlər İclasında təmsil olunub

Energetika nazirinin müavini Kamal Abbasov Azərbaycan İran İslam Respublikasının paytaxtı Tehranda keçirilən Qaz İxrac Edən Ölkələr Forumunun (GECF) 26-cı Nazirlər İclasında təmsil olunub.

Trend Energetika Nazirliyinə istinadən xəbər verir ki, GECF-nin 26-cı Nazirlər İclasında Azərbaycanı Energetika nazirinin müavini Kamal Abbasov təmsil edib. Bildirilib ki, nazir müavini ölkəmizin zəngin təbii qaz ehtiyatlarına və strateji mövqeyinə əsaslanaraq qlobal enerji bazarında mühüm rol oynadığını bildirib. Azərbaycan qazının 12 ölkə tərəfindən idxal edildiyi və bunun enerji resurslarımıza artan tələbatın göstəricisi olduğu diqqətə çatdırılıb. Çıxışda Bakıda keçirilmiş COP29 konfransının uğurlarından da bəhs edilib. Konfrans çərçivəsində GECF-nin təşkil etdiyi panel müzakirələrinə toxunularaq təbii qazın dayanıqlı enerji keçidindəki əhəmiyyəti vurğulanıb.

Sonda 27-ci Nazirlər İclasının 2025-ci ilin son rübündə Qətərin paytaxtı Dohada keçirilməsi barədə qərar qəbul edilib.



# “Gələn il sosial təminat sahəsində əhəmiyyətli artımlar gözlənilir”

Bu fikirləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev “Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında” və “İşsizlikdən Sığorta Fondunun 2025-ci il büdcəsi haqqında” qanun layihələrinin üçüncü oxunuşda müzakirə edildiyi iclasda çıxışı zamanı səsləndirib.
Komitə sədri pensiyaların sığorta hissəsinin artacağını vurğulayaraq, yeni ilin başlanğıcında bütün pensiyaçıların pensiyalarının sığorta hissəsinin təxminən 9 faiz artacağını açıqlayıb. Bu artım, pensiyaçıların sosial rifahının yaxşılaşdırılmasına və onların maddi vəziyyətlərinin möhkəmləndirilməsinə yönəlmiş mühüm addım kimi qiymətləndirilib.
M.Quliyev əlavə edib ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) və İşsizlikdən Sığorta Fondunun (İSF) büdcələrində gələn il üçün nəzərdə tutulan artımlar, xüsusilə sosial müdafiəyə ehtiyacı olan vətəndaşlar, şəhid ailələri və qazilər üçün əlavə dəstək təmin edəcək. Bu artımlar, həmçinin həmin vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasına, onların ehtiyaclarının qarşılanmasına xidmət edəcək.
İşsizlikdən Sığorta Fondunun gələn il üçün nəzərdə tutulan büdcəsinin 50 faizinin aktiv məşğulluq proqramlarına yönləndiriləcəyini qeyd edən Musa Quliyev bu addımın işsiz və iş axtaran vətəndaşların əmək bazarına reinteqrasiya olunmalarına kömək edəcəyini və onların iş tapma imkanlarını artıracağını bildirib. Bu, xüsusilə işsizlikdən əziyyət çəkən şəxslərin yeni bacarıqlar əldə etməsinə və cəmiyyətə faydalı şəkildə inteqrasiya olmasına şərait yaradacaq. Gələn ilin büdcəsi, həmçinin sosial rifahın artırılması və vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsi məqsədinə xidmət edəcək.



## Azərbaycan və BƏƏ bank sektorunda layihə və risklərin idarə olunmasını müzakirə edib




Məlumata görə, bu, Azərbaycan Mərkəzi Bankının (AMB) Strategiya və layihə idarəetməsi ilə Risklərin idarə edilməsi departamentlərinin nümayəndələrinin Birləşmiş Ərəb Əmirliklərinin Mərkəzi Bankına işgüzar səfərləri çərçivəsində baş tutub.
Səfər çərçivəsində strateji planlaşdırma, eləcə də layihələrin və risklərin idarə edilməsi sahələri üzrə qarşılıqlı fikir mübadiləsi aparılıb, qabaqcıl yanaşmalar və uğurlu təcrübələr nəzərdən keçirilib.

## ABB-nin təşkilatçılığı ilə ölkəmizdə ilk Data və Süni İntellekt Sammiti keçirildi




9 dekabr 2024-cü ildə Azərbaycanda ilk dəfə Data və Süni İntellekt Sammiti baş tutub. ABB-nin təşkilatçılığı ilə keçirilən Sammitə Azərbaycandan və xaricdən 250-dən çox iştirakçı qatılıb.
Sammitin spikerləri və panel müzakirələrinin iştirakçıları sırasında ABB ilə yanaşı, Rəqəmsal İnkişaf və İnnovasiyalar Agentliyinin, Böyük Britaniyanın Centrica şirkətinin, “Harvard Business Review” (Türkiye) jurnalının, EY Türkiyə şirkətinin, Azercell şirkətinin, Türkiyə İş Bankının, Mc Kinsey şirkətinin, Mastercard beynəlxalq ödəniş şirkətinin və başqa qurumların rəhbər təmsilçiləri də olub.
Belə bir tədbirin təşkilində məqsəd data icmasının təmsilçilərini bir araya toplayaraq təcrübə mübadiləsi aparmaq, yeni trendləri öyrənmək, qarşılıqlı əməkdaşlıqlar qurmaqdır.
Sammitdə data analitikanın və süni intellektin gələcəyi, rəqəmsal texnologiyalarla müştərilər üçün yeni təcrübələrin yaradılması və s. mövzularda təqdimatlar dinlənib. Süni intellekt dövründə data əsaslı qərarvermə mədəniyyətinin formalaşdırılması mövzusunda panel müzakirələri aparılıb. Ayı-ayrı biznes sektorlarında, o cümlədən bankçılıqda datalardan effektiv istifadə ilə bağlı maraqlı keys həlləri təqdim edilib.
Sammitdə ABB-nin data texnologiyalarından istifadə sahəsində əldə etdiyi təcrübə barədə də ətraflı məlumat verilib, “ABB AI Factory” haqqında söhbət açılıb.
ABB-nin İdarə Heyətinin sədri Abbas İbrahimov bildirib: ***“Müştərilər üçün data əsaslı rəqəmsal təcrübənin yaradılması ABB-nin əsas strateji hədəflərindəndir. ABB-də son 2 ildə yaradılmış süni intellekt modellerimizin sayı 125-ə çatıb. Bankımızda artıq müxtəlif sahələrdə 32 Süni İntellekt tətbiq ssenarisi (Use-case) uğurla həyata keçirilir, süni intellekt qərar vermə sürətimizi və dəqiqliyimizi artırır. Biz öz modellərimizin bizə gətirdiyi faydaları da ölçə bilirik, son 2 ildə süni intellekt modelləri ABB-yə 20.4 milyon manatlıq birbaşa müsbət maliyyə təsiri yaradıb”.***
Onun sözlərinə görə, son 2 ildə süni intellekt həlləri Bankın aktiv riteyl müştərilərinin sayını 63% artırıb. Data texnologiyalarından istifadə sayəsində müştərilərə daha yaxşı təcrübələr təqdim edə bildiyinə görə ABB-nin müştəri məmnuniyyəti göstəricisi (NPS) də son bir neçə ildə 48-dən 76.8-ə yüksəlib.

## Sahibkarlara verilən güzəştli kreditin məbləği məlum olub

Bu ilin on bir ayı ərzində Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə 5144 layihənin maliyyələşdirilməsinə 211,7 milyon manat güzəştli kredit verilib. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 43,6% çoxdur.
Qeyd edək ki, sahibkarlar SİF-nin güzəştli kreditlərindən yararlanmaq üçün müvəkkil kredit təşkilatlarına müraciət etməlidirlər. Müvəkkil kredit təşkilatları Fondun əməkdaşlıq etdiyi banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqları aiddir.

## Azərbaycanın tədiyə balansının profisitində kəskin azalma

Azərbaycanın 9 aylıq cari əməliyyatlar balansının profisiti 6,7 milyard dollardan 4 milyard dollara (40,3% azalıb), tədiyə balansının profisiti (ehtiyat aktivləri) 6,4 milyard dollardan 181,6 milyon dollara düşüb (35 dəfədən çox azalıb). Əgər tədiyə balansı defisitli olarsa, bu, növbəti devalvasiya ehtimalını artırır.
Azərbaycan Mərkəzi Bankı 2024-cü ilin 9 ayı üzrə Azərbaycan Respublikasının tədiyə balansını açıqlayıb.
Qeyd edilib ki, 2024-cü ilin 9 ayı ərzində cari əməliyyatlar balansında 4 milyard dollar profisit formalaşmış (ötən ilin eyni dövrü ilə müqayisədə 40,3% az), kapitalın və maliyyənin hərəkəti balansında isə 3,6 milyard dollar kəsir formalşmışdır.
Nəticədə tədiyə balansının profisiti təxminən 181,6 milyon dollar olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 35 dəfədən çox azdır. Müqayisə edək ki, 2023-cü ilin 9 ayı üzrə tədiyə balansı əsasən neft və qaz qiymətlərinin əlverişli olması, qeyri-neft-qaz ixracının artması və kapitalın və maliyyənin hərəkəti hesabında müsbət meyillərdən təsirlənmişdi. Cari əməliyyatlar balansında 6.7 milyard, kapital və maliyyənin hərəkəti hesabında isə 0.4 milyard dollar profisit yaranmış, ehtiyat aktivləri (tədiyə balansının profisiti) 6.4 milyard dollar artmışdı.



## İstehlakçılara 160 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb

Bu ilin yanvar-noyabr ayları ərzində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 160 milyon 277,7 min manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.
Bu barədə Dövlət Vergi Xidmətindən bildirilib. Məlumata görə, “ƏDV geri al” layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib.
Bundan başqa, “ƏDV geri al” layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində fiziki şəxs olan istehlakçılar tərəfindən ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması prosesi də davam edir. 2024-cü ilin yanvar-noyabr ayları ərzində nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan həcmi 21 milyon 301,7 min manatdan çox olub.

## Elektron alış aktının tətbiqi ilə bağlı qaydalarda dəyişikliklər edilib

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 noyabr tarixli qərarı ilə “Elektron alış aktının formasının tətbiqi, uçotu və istifadəsi Qaydaları”nda dəyişiklik edilib, “Elektron alış aktı”nın forması yeni redaksiyada verilib.
Bu barədə Dövlət Vergi Xidmətindən bildirilib.
Dəyişikliklərə əsasən, vergi orqanında uçotda olmayan fiziki şəxslərin hüquqlarının qorunmasına, vergidən yayınma sxemi yaratmaqla dövlət büdcəsinə ödəniləcək vergilərin yayındırılmasının qarşısının alınmasına, əməliyyatlar icra edilərkən vətəndaşın təqdim etdiyi malların adı, kodu, ödəmə mənbəyində tutulan verginin məbləği və s. barədə məlumatlara elektron qaydada baxış etməklə, alış aktının təsdiqi və ya təsdiqindən imtina edilməsinə imkan yaradılacaq. Belə ki, vergi orqanında uçotda olmayan və malları alış aktı ilə təqdim edən fiziki şəxslər şəxsiyyət vəsiqəsinin FİN nömrəsi və öz adlarına qeydiyyatda olan mobil nömrəyə göndərilən SMS kodu vasitəsilə internet vergi idarəsinə (new.e-taxes.gov.az) daxil ola, malların alıcısı olan vergi ödəyiciləri tərəfindən hazırlanmış elektron alış aktlarında göstərilmiş mallar barədə məlumatlarla tanış olaraq sənədi təsdiqləyə, yaxud ondan imtina edə biləcəklər. Elektron alış aktının hazırlanaraq malların alıcısı olan vergi ödəyicisi tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edildiyi tarix, həmin elektron alış aktının tarixi sayılacaq.
İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti bildirir ki, elektron alış aktının təsdiqi vətəndaşların istifadə etdikləri mobil nömrələr yalnız onların öz adlarına olduğu halda mümkün olacaq.

## Azərbaycandan Avropa bazarlarına ayaqqabı ixracına başlanıla bilər



İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Ağdam Sənaye Parkının rezidenti “BAFCO İnvest” MMC ayaqqabı istehsalı sahəsində EN ISO 20345:2022 və EN ISO 20347:2022 beynəlxalq standartlara uyğunluq sertifikatlarına layiq görülüb. Məlumata görə, bu sertifikatlar şirkətin istehsal etdiyi məhsulların Avropa bazarına ixracına imkan yaradır.
Bildirilib ki, hazırda şirkət tərəfindən istehsal edilən məhsulların ixrac edilməsi məqsədilə MDB, Avropa ölkələri ilə danışıqlar aparılır. Qeyd edək ki, Sənaye Parkının 2,5 hektar ərazisində yerləşən və Almaniyanın tanınmış Desma markasının avadanlıqları ilə təchiz olunan fabrikin illik istehsal gücü 510000 cüt ayaqqabı təşkil edir.

## Aktiv ƏDV ödəyicilərinin sayı 13,9 faiz artıb

Bu ilin dekabrın 1-nə aktiv vergi ödəyicilərinin sayı 5,2 faiz artaraq, 800,9 min təşkil edib.
Bu barədə Trend İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir.
Məlumata görə, aktiv əlavə dəyər vergisi (ƏDV) ödəyicilərinin sayı isə 13,9 faiz artaraq, 52 min təşkil edib.
Qeyd olunub ki, həmin tarixə aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 5,5 faiz artıb və 215,7 min olub.

# Выставка "Суверенная Беларусь"

## Выступление представителя Посольства на открытии выставки

*Мы сегодня здесь собрались по случаю открытия фотовыставки «Суверенная Беларусь».*

Мы благодарим ректора университета за возможность проведения этого мероприятия. Выбор места для выставки связан с тем, что в мае 2024 года здесь был открыт второй по счету в Азербайджане Центр белорусского языка и культуры. Отмечу, что первый наш центр появился на базе Бакинского славянского университета в июне 2010 года.

Что касается данной выставки, то она подготовлена на основе материалов нашего государственного информационного агентства БЕЛТА и презентуется посольствами Беларуси во многих странах.

2024-й год – юбилейный для нашей страны. 3 июля Беларусь отметила 80-летие освобождения республики от немецко-фашистских захватчиков во время Великой Отечественной войны. Белорусский народ подвергся геноциду и понес огромные жертвы, но не покорился и мужественно боролся за свободу. Только в партизанских отрядах воевало около 400 тысяч человек!

За освобождение Беларуси сражались и воины-азербайджанцы, 12 из которых удостоены звания Героя Советского Союза. Среди них –Ази Асланов– дважды Герой и Наджафгулу Рафиев, именем которого названа улица в Минске, а также улица в Баку, на которой расположено Посольство Беларуси, и это глубоко символично.

Недавний успешный государственный визит Президента Беларуси Александра Григорьевича Лукашенко в Азербайджан подтвердил, что наше стратегическое партнерство будет и далее укрепляться, а взаимовыгодное сотрудничество между Республикой




Беларусь и Азербайджанской Республикой продолжит активно развиваться на основе традиций дружбы и взаимопонимания наших народов.

Указанный визит стал мощным импульсом для движения навстречу друг другу. Проведены конструктивные и плодотворные переговоры в Баку, посещение Карабаха, в возрождение которого вносит свой конкретный вклад и Беларусь. Подчеркну, что наш Президент стал первым из глав нетюркских государств, который посетил жемчужину Карабаха, культурную столицу Азербайджана – древнюю Шушу.

Успешно развивается наше политическое, торгово-экономическое и гуманитарное сотрудничество, расширяются прямые связи городов и регионов двух стран – Минска и Баку, Гомеля и Гянджи, Могилева и Сумгаита и др.

В последнее время заметно активизировались наши контакты. В июне проведен визит Председателя Милли Меджлиса в Беларусь, а в октябре – визит Премьер-министра Азербайджана. Месяц назад Президент Беларуси участвовал в Саммите мировых лидеров в рамках COP29 и провел переговоры с Президентом Азербайджана.

В Беларуси с радостью воспринимают достижения братского Азербайджана под мудрым руководством Президента Ильхама Гейдаровича Алиева.Успешно развивается экономика, растет международный авторитет Вашей страны, которая четыре года успешно председательствовала в Движении неприсоединения, а сейчас с большим успехом провела COP29.

Мы дорожим своим суверенитетом. И для этого стараемся обеспечивать экономический суверенитет, занимаемся обеспечением своей энергетической и продовольственной безопасности, укрепляем оборону. В повестке дня руководства страны сегодня и технологический суверенитет, и другие актуальные вопросы.

Мы построили Белорусскую атомную электростанцию, имеем 4 своих космических спутника, Белорусскую национальную биотехнологическую корпорацию, завод легковых автомобилей «БЕЛДЖИ». Мы участвуем в освоении Антарктиды, развиваем Парк высоких технологий, работает Национальная академия наук, развивается медицина, особенно успешно – в трансплантации органов.

В этом году белоруска Марина Василевская совершила космический полет на МКС. Такие традиционные для нашей страны отрасли как микроэлектроника, приборостроение, станкостроение в последние годы получили второе дыхание и развиваются ускоренными темпами.

Гарантом суверенитета по Конституции является Президент Беларуси. 26 января 2025 года в Беларуси пройдут президентские выборы.

Процитирую вам слова Главы государства по этому поводу: «Мы проводим в Беларуси предвыборную кампанию для своего народа и интересы наших людей должны быть поставлены во главу угла. А не так, как кто-то хочет там за границей».

Выборы являются неотъемлемым атрибутом современной государственности. Это политический инструмент, благодаря которому граждане наделяют властными полномочиями тех, кому доверяют и в ком видят своего лидера, способного обеспечить мир, развитие и благополучие.

Выборы-2025 завершат цикл политической модернизации, начатый референдумом 27 февраля 2022 г. Система институтов власти примет окончательную форму, прописанную в новой редакции Конституции Республики Беларусь. В Беларуси построено суверенное и независимое государство для народа. Сформирована собственная, уникальная модель народовластия. Беларусь является страной с низким уровнем социального расслоения населения по доходам.

Наша страна самостоятельно обеспечивает себя во всех стратегически важных сферах жизни.

Под руководством Главы государства удалось не только сохранить и модернизировать наши промышленные гиганты (МАЗ, БЕЛАЗ, МТЗ, БМЗ и многие другие), но и создать совершенно новые, высокотехнологичные предприятия. Это означает, что созданы сотни тысяч рабочих мест, обеспечены экономическая независимость страны и ее политический суверенитет.

На долю Беларуси приходится около 80% производимых в СНГ тракторов, около 50% химических волокон и нитей, 20% холодильников и морозильников.

Независимая Беларусь последовательно демонстрирует внешнюю миролюбивую политику. Растет международный авторитет республики. Об этом свидетельствует участие Президента Беларуси в саммитах ШОС и БРИКС, а также II Минская международная конференция по евразийской безопасности. Недавно опубликован рейтинг стран мира по достижению Целей устойчивого развития ООН(искоренение нищеты, решение экологических, социальных проблем). Беларусь заняла 30-е место, обойдя все страны СНГ, а также США.

Суверенитет любого государства в значительной степени зависит от способности руководителя страны проводить эффективную политику в сфере национальной безопасности.

Нынешним поколениям белорусов посчастливилось родиться и жить под мирным небом. И в этом тоже заслуга сильного Президента.

Наша задача – продемонстрировать сплоченность белорусского общества, верность нашим политическим традициям. Поэтому мы все должны понимать, что выбираем не просто Главу государства, а мирное развитие нашей Беларуси. И этим укрепляем суверенную Беларусь.

Пользуясь возможностью, Посольство Беларуси благодарит Азербайджанский университет языков за сотрудничество и искренне желает всем присутствующим крепкого здоровья и успехов во всех делах, а дружественному Азербайджану – мира, добра и процветания.

## Председатель Комитета КСО ЗАО "AzerGold" встретился с жителями Нахчывана



Председатель Комитета по корпоративной социальной ответственности (ККСО) ЗАО "AzerGold", член правления акционерного общества - заместитель председателя правления Хайям Фарзалиев встретился с местными жителями в Джульфинском районе Нахчыванской Автономной Республики.

Встреча была организована в селе Ханагях, расположенном вблизи месторождений золота "Ортакенд", в том числе меднопорфирового месторождения "Гейдаг"и медного месторождения "Башкенд", где ЗАО "AzerGold" в настоящее время проводит интенсивные исследовательские работы по проекту.

Основная цель первой встречи в рамках ККСО с жителями рассматриваемого села было ознакомление с гражданами, проживающих в районах, близких к участкам соглашение, информирование их о подготовительных работах по эксплуатации участков, выявление социальных потребностей местных общин и включение их в план социальных мероприятий, подготовленный на следующий год.

Хайям Фарзалиев отметил, что месторождение "Ортакенд", привлеченный к геологической разведке ЗАО "AzerGold" с 2018 года, является первым месторождением золота, подготовленным к эксплуатации в Нахчыванской Автономной Республике.

Председатель Комитета КСО довел до сведения жителей села, что в настоящее время определена методология добычи драгоценных металлов на месторождении, ведется работа по внедрению оптимальной технологии переработки.

Было отмечено, что одной из основных целей является внесение дополнительного вклада в социально-экономическое развитие нашей страны, в частности Нахчыванской Автономной Республики, повышение уровня занятости в регионе, дальнейшее укрепление благосостояния населения за счет организации добычи и производственной деятельности на месторождении золота "Ортакенд", которое планируется ввести в эксплуатацию в ближайшие годы, в том числе в других участках, которые в настоящее время находятся на стадии геологической разведки.

На встрече была представлена подробная информация о проектах, реализуемых акционерным обществом по различным направлениям на основе принципа социальной ответственности в ходе добывающей и производственной деятельности на сегодняшний день, заслушаны обращения и инициативы жителей в связи с их социальными потребностями, зарегистрированы для рассмотрения. В рамках визита также были проведены встречи в местных исполнительных органах Нахчыванской Автономной республики, обсуждены планируемые проекты ЗАО связанные с регионом.

Отметим, что Комитетом КСО будет продолжена организация традиционных встреч с местными жителями в регионах деятельности акционерного общества.

## В Баку открылась фотовыставка "Суверенная Беларусь"




В Азербайджанском университете языков (АУЯ) проходит фотовыставка, посвященная Беларуси, целью которой является информирование азербайджанской молодежи об ее истории и культуре.

На открытии фотовыставки "Суверенная Беларусь" выступил ректор университета Кямал Абдулла, отметивший, что АУЯ через Центр белорусского языка и культуры стремится развивать отношения с вузами этой страны.

В свою очередь заместитель посла Беларуси в Азербайджане Владимир Чушев подчеркнул, что выставка важна для предоставления информации о Беларуси, учитывая, что в этом году страна отмечала 80-летие освобождения от нацистской оккупации.

Он напомнил о важном вкладе в освобождение республики, который внес азербайджанский народ, и подчеркнул высокий уровень отношений между странами: "Наше сотрудничество успешно развивается. В последнее время двусторонние контакты заметно активизировались".

Депутат Милли Меджлиса, академик Зияд Самедзаде сказал: «Экономическая модель Беларуси представляет особый интерес для анализа по ряду причин. Разные страны (Англия, США, Китай, Германия, Япония, Корея, Сингапур) в разное время достигали высоких темпов развития различными путями. Тем не менее, есть и ряд общих моментов. Прежде всего, это активная помощь государства рынку. Опыт Беларуси убедительно показывает, что рыночную экономику невозможно построить, не построив крепкого государства. Главные положения этой модели: сильное государственное регулирование, преобладание государственной собственности, государственное прогнозирование и социальная ориентация экономики.

Как показывает статистика ООН, Беларусь - одна из самых благополучных республик бывшего Советского Союза. Высокий рост ВВП; низкая безработица; впечатляющий промышленный рост; мало бедных; большие затраты на здравоохранение и образование; низкая детская смертность. Можно еще больше сказать, но все это наглядно видно на стендах выставки».

# Təhsildə irrasional rasionallaşma



**(əvvəli ötən sayımızda)**

**Azkomplektli məktəblərdə distant təhsilin tətbiqi ilə tədrisin təşkili imkanları.**

Azkomplektli məktəblərdə distant təhsilin tətbiqi müəyyən şərtlər daxilində bu məktəblərin bağlanmasının qarşısını ala bilər. Distant təhsilin tətbiqi azkomplektli məktəblərdə tədrisin təşkilinə əlavə imkanlar yaradır.

**Distant təhsil (DT) azkomplektli məktəblərə nə kimi imkanlar yaradır?**

- Keyfiyyətli tədrisə çıxış imkanı. Azkomplektli məktəblərdə müəllim çatışmazlığı problemi daim olub. Distant təhsil vasitəsi ilə şagirdlər şəhərlərdə və ya ixtisaslaşmış məktəblərdə çalışan yüksək ixtisaslı müəllimlərin dərslərinə qoşula bilərlər. Bu da tədrisin keyfiyyətini, şagirdlərin təhsil imkanlarını və təhsilə marağını yüksəldər.

- ***Məktəblərin fəaliyyətinin qorunması imkanı.*** *Əgər azkomplektli məktəblərin bağlanması nəzərdə tutulursa, distant təhsil onların ənənəvi formada bağlanmasının qarşısını ala bilər. Belə məktəblər hibrid təhsil modelinə keçərək, həm ənənəvi, həm də onlayn dərsləri birləşdirə bilərlər.*

- ***Resurslardan səmərəli istifadə imkanı.*** *Azkomplektli məktəblər üçün bütün fənlər üzrə müəllim tapmaq və onları işə cəlb etmək çətindir. Distant təhsil bu problemi həll edərək, müxtəlif bölgələrdəki şagirdlərə bir platforma üzərindən təhsil alma imkanı verir.*

- ***Şagirdlərin transferi (yerdəyişməsi) problemi aradan qalxır.*** *Məktəblərin bağlanması zamanı şagirdlər digər məktəblərə getməli olur ki, bu da nəqliyyat və vaxt itkisi kimi problemlər yaradır. Bununla belə qış mövsümündə dağ kəndlərindəki yolların nəqliyyat üçün də riskli olduğunu unutmalı deyilik. Distant təhsil vasitəsilə şagirdlər öz evlərindən təhsillərini davam etdirə bilərlər.*

- ***Müasir texnologiyalardan istifadə.*** *Distant təhsil şagirdlərin İKT bacarıqlarını inkişaf etdirir və onları gələcəyin rəqəmsal dünyasına hazırlayır. Bu, həm şagirdlərin, həm də müəllimlərin innovativ texnologiyalarla işləmə qabiliyyətini artırır.*

*- Şagirdlər və onların ailə üzvləri gələcəkdə bu texnologiya ilə peşə təlimləri də keçə bilərlər. Nəzərə alaq ki, gələn il 200 min Azərbaycan vətəndaşı hökumətin maliyyə dəstəyi ilə COURSERA platforması üzərindən müxtəlif onlayn təlimlər keçmək imkanına malik olacaqlar.*

**Bütün bunlarla yanaşı, distant təhsilin azkomplektli məktəblərdə tətbiqi müəyyən problemlərlə də qarşılana bilər. Lakin bu problemlərin həll edilməsi mümkündür. Distant təhsilin azkomplektli məktəblərdə tətbiqinin mümkün problemləri:**

- ***Texnoloji infrastruktur çatışmazlığı.*** *Ucqar bölgələrdə internetə çıxışın zəif olması distant təhsil prosesini çətinləşdirə bilər. Bu problemi həll etmək üçün hökumət tərəfindən infrastruktur yatırımları tələb olunur.*

- ***Texnoloji biliklərin çatışmazlığı.*** *Həm müəllimlər, həm də şagirdlər arasında rəqəmsal savadlılığın aşağı olması distant təhsilin effektivliyini azalda bilər. Buna görə təlimlər və dəstək proqramları təşkil edilməlidir.*

- ***Sosial təmasın azalması.*** *Distant təhsil şagirdlərin məktəb mühitindəki sosial əlaqələrini zəiflədə bilər. Bu, uşaqların psixososial inkişafına mənfi təsir göstərə bilər.*

- ***Maliyyə problemləri.*** *Texnologiya təminatı (kompüterlər, planşetlər, internet bağlantısı və s.) azkomplektli məktəblər üçün əlavə maliyyə yükü yarada bilər.*

**Distant təhsilin azkomplektli məktəblərdə tətbiqi üçün təkliflər:**

*- Hibrid təhsil modeli. Ənənəvi tədrisi tamamilə dayandırmadan, distant təhsili əlavə vasitə kimi tətbiq etmək lazımdır. Məsələn, əsas dərslər məktəbdə keçirilsin, bəzi fənlər isə onlayn formada təqdim olunsun.*

*- Texnoloji infrastrukturun gücləndirilməsi. Ucqar bölgələrdə internetə çıxışı təmin etmək üçün dövlət və ya özəl sektor vasitəsilə sərmayə qoyulmalıdır.*

- ***Müəllim və şagirdlər üçün təlimlər.*** *Distant təhsilin effektivliyini artırmaq üçün həm müəllimlər, həm də şagirdlər üçün texnologiyalardan istifadə üzrə təlimlər təşkil olunmalıdır.*

- ***Distant təhsil platformalarının yaradılması.*** *Yerli məktəblərə uyğunlaşdırılmış xüsusi distant təhsil platformaları hazırlanmalıdır. Bu platformalar müasir metodikaları dəstəkləməli və istifadəsi asan olmalıdır.*

- ***Müxtəlif texnologiyaların tətbiqi.*** *Video dərslər, onlayn tapşırıqlar, tədris materialları və virtual siniflər vasitəsilə distant təhsil zənginləşdirilə bilər.*

Distant təhsilin azkomplektli məktəblərdə tətbiqi onların bağlanmasının qarşısını almaq üçün səmərəli bir həll yoludur. Amma bu yanaşma texnoloji və inzibati dəstək tələb edir. Bu proseslərin düzgün planlaşdırılması və icrası həm məktəblərin fəaliyyətini qorumağa, həm təhsilin keyfiyyətini artırmağa, həm sosial narazılığa son qoymağa, həm də ucqar kəndlərdə həyatın davam etməsinə imkan yarada bilər.

Distant təhsilin azkomplektli məktəblərdə tətbiqi imkanlarının yaradılması Gürcüstanda yaşayan azərbaycanlıların da məktəb problemlərini həll edə bilər. Belə ki, 33 il əvvəl Borçalıda 180 Azərbaycan məktəbi olduğu halda, bu gün 120 Azərbaycan məktəbi var. Bu məktəblərin sayının sürətlə azalması, orada yaşayan soydaşlarımızı, elə bizi də çox narahat edir.

Orada məktəblərin bağlanma səbəbi müəllim çatışmazlığıdır. Son 33 ildə Borçalı gənclərinin Azərbaycanda ali pedaqoji təhsil almaq imkanlarının olmaması öz acı nəticələrini göstərir. Biz bu problemi hələ 2017-ci ildə qaldırmışdıq. Təklif etmişdik ki, bu problem distant təhsil sistemi yaratmaqla həll edilə bilər. Gürcüstandakı icma nümayəndələri, ölkəmizin gürcüstandakı səfirliyi, AR Diaspora komitəsi bu təşəbbüsə hamılıqla dəstək verirdilər. Lakin sonda AR təhsil nazirliyi bu təşəbbüsü dəstəkləmədiyi üçün proses sona çatmadı, təşəbbüs elə təşəbbüs olaraq qaldı.

İndi ucqar kəndlərimiz üçün bu problemləri həll edə bilsək, həm məktəblərimiz bağlanmaz, həm də Gürcüstanda yaşayan azərbaycanlı uşaqlar da bu layihədən faydalana bilərlər. Elə başqa ölkələrdə yaşayan diaspora uşaqları da.

***Dos. İlham ƏHMƏDOV,***
***təhsil məsələləri üzrə ekspert***

# Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilib

***10 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının və rəsmi tərəfdaş Türkiyənin "Florence Nightingale Healthcare International Group"un təşkilatçılığı və "Abbott" şirkətinin dəstəyi ilə Ulu Öndər Heydər Əliyevin anım gününə həsr olunmuş "Orqan transplantasiyasında müasir dövrün çağırışları" mövzusunda beynəlxalq elmi konfrans həyata keçirilib.***



"Orqan transplantasiyasında müasir dövrün çağırışları" mövzusunda beynəlxalq elmi konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə öz işinə başlayıb. Açılış nitqi ilə çıxış edən Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayıb, hər kəsi Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin xatirəsini 1 dəqiqəlik sükutla yad etməyə dəvət edib.




Konfransın rəsmi açılış hissəsində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim Ceyhun Məmmədov, "Florence Nightingale Healthcare International Group"-un icraçı direktoru Sinan Nazif Aran, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müşaviri Nelli Veysova və Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı, t.e.d., Əməkdar həkim Rəşad Mahmudov çıxış ediblər.

Daha sonra Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və Orqan transplantasiyası şöbəsinin cərrah-transplantoloqu, t.ü.f.d., Səhiyyə əlaçısı, Mircəlal Kazımi "Solid orqan transplantasiyasının inkişaf perspektivləri" mövzusunda konseptual təqdimatla çıxış edib. Tədbirin rəsmi açılış mərasimi bədii hissə ilə başa çatıb.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, ürək-damar cərrahı, t.e.d., Əməkdar həkim Rəşad Mahmudov, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndəsi Esmira Həsənova, MedEra Hospitalının həkim-infeksionisti Azər Nağıyev, "Florence Nightingale Healthcare International Group"-un ümumi cərrahı Remzi Emiroğlu, Yeni Klinikanın direktor müavini Eldar Əhmədov, Mərkəzi Klinikanın Orqan və toxumaların transplantasiyası şöbəsinin ümumi cərrahı, transplantoloqu Tariyel Nadirov, Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin cərrah-transplantoloqu, t.ü.f.d., Mircəlal Kazımi, Mərkəzi Gömrük Hospitalının nefroloqu Elnur Fərəcov, Dövlət Təhlükəsizliyi Xidməti Hərbi Tibb Baş İdarəsi Elmi Təcrübə Mərkəzinin rəisi, t.e.d. Rəşad Şolan, Mərkəzi Gömrük Hospitalının Efferent terapiya şöbəsinin rəisi, nefroloq Mirmənsim Məmmədov, "Florence Nightingale Healthcare International Group"-un nefroloqu Ayşe Sinangil və Mərkəzi Gömrük Hospitalının infeksionisti Mədinə Abdullayeva müxtəlif mövzular ətrafında məruzələrlə çıxış ediblər.

"Azərbaycanda orqan transplantasiyasının təşkilində dünya təcrübəsinin tətbiqi", "Qaraciyər transplantasiyası: təcrübə, çağırışlar və perspektivlər" və "Böyrək transplantasiyası: müasir yanaşmalar və gələcək imkanlar" mövzusunda 3 paneldən ibarət Beynəlxalq elmi konfransda – ümumilikdə 13 məruzə dinlənilib, orqan transplantasiyası sahəsində baş verən müasir çağırışlar, son tədqiqatların nəticələri, o cümlədən inkişaf istiqamətləri müzakirə edilib, yerli və beynəlxalq mütəxəssislərarası bilik və təcrübə mübadiləsi aparılıb.

Konfrans panel müzakirələr və sual-cavab sessiyaları vasitəsilə interaktiv şəkildə həyata keçirilib. Proqramı tamamlayan hər bir iştirakçıya 7 DTT balı və sertifikat verilib.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Gədəbəydə "AzerGold" QSC və "R.V. Investment Group Services, LLC ABŞ" arasında görüş keçirilib



Gədəbəy rayonunda "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, "R.V. Investment Group Services, LLC ABŞ" şirkətinin prezidenti Reza Vəziri, eləcə də hər iki şirkət nümayəndələrinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Görüş tərəflər arasında hasilatın pay bölgüsü haqqında saziş üzrə səlahiyyətlərin icrası çərçivəsində həyata keçirilmiş birgə operativ tədbirlər və qarşıdakı dövrdə icrası nəzərdə tutulan işlərin müzakirəsi məqsədilə təşkil edilib.

Görüşdə saziş üzrə tərəfdaşlıq səlahiyyətlərinin "AzerGold" QSC-yə ötürülməsindən sonra Səhmdar Cəmiyyətinin saziş sahələrində fəaliyyətin beynəlxalq standartlar və qanunvericiliyin tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində çevik hüquqi, təşkilati və texniki dəstəyi qeyd olunub. Bu xüsusda "Gədəbəy" saziş sahəsində nəm tullantı anbarının genişləndirilməsi ilə bağlı zəruri sənədləşmə, təhlükəsizlik tədbirlərinin icrası, mədən sahələrində hasilat və istehsalat fəaliyyəti ilə bağlı digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb. Müzakirələr çərçivəsində yerin təkindən istifadəyə dair müvafiq dövlət qurumlarından icazə sənədlərinin alınması, torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi, tikintiyə icazə, istehsalatda təhlükəsizlik tədbirləri, yerli icmalarla işin gücləndirilməsi, ətraf mühitin mühafizəsi ilə bağlı məsələlərin daim diqqətdə saxlanılmasının vacibliyi bildirilib, Səhmdar Cəmiyyətinin müvafiq istiqamətlər üzrə təcrübəsi bölüşülüb.

Xatırladaq ki, Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli, 1176-VIQ nömrəli Qanunu ilə "Gədəbəy, Qoşa, Xarxar, Qaradağ, Ordubad qrupu (Piyazbaşı, Ağyurd, Şəkərdərə, Kələki), Qızılbulaq, Dəmirli və Vejnəli qızıl, mis və polimetal perspektiv filiz yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin həyata keçirilməsi ilə əlaqədar dövləti təmsil etmək səlahiyyəti "AzerGold" QSC-yə verilib.

# ABŞ 2025-ci il üçün neftin qiyməti ilə bağlı proqnozlarını aşağı salıb

ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EIA) gələn il üçün neftin qiyməti ilə bağlı proqnozunu aşağıya doğru yenidən nəzərdən keçirib. Brent markalı neftin orta barel qiyməti təxmin edilən 76,06 dollardan 73,58 dollara düşüb.

ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EIA) "Dekabr 2024 Qısamüddətli Enerji bazarı proqnozları Hesabatına" görə, gələn il neft bazarlarının nisbətən tarazlaşacağı fərz edilir. Brent tipli xam neftin barel qiymətinin cari səviyyələrə yaxın olacağı gözlənilir.

Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və bəzi qeyri-OPEC istehsalçı ölkələrindən ibarət OPEC+ qrupunun hasilatı 2025-ci il ərzində yeni hədəf səviyyələrə çatdıracağı və qlobal neft ehtiyatlarının sonda indiki səviyyələrə yaxın qalacağı gözlənilir.

Ehtiyatların birinci rübdə OPEC+ ixtisarı ilə gündəlik təxminən 700 min barel azalacağı, ilin qalan hissəsində isə OPEC+ və qeyri-OPEC+ ölkələrində hasilatın artması ilə gündəlik təxminən 100 min barel artacağı təxmin edilir. Bu artımlarla Brent markalı neftin barel qiymətinin 2025-ci ildə bu ilki orta səviyyə olan 80 dolların aşağı qalacağı hesablanır.

Müvafiq olaraq, gələn il Brent markalı neftin orta qiymətinin 73,58 dollar/barel olacağı gözlənilir.



Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500